# Final tanqosu



## Argentina 36 illik fasilədən sonra 3-cü dəfə Dünya çempionu oldu

**"DÇ-2022", Final**

**Argentina - Fransa - 3:3 (Penaltilər seriyası - 4:2)**

**Qollar:** Lionel Messi, 13-pen.(1:0), Di Mariya, 36 (2:0), Kilian Mbappe, 80-pen. (2:1), 82 (2:2), Lionel Messi, 109 (3:2), Kilian Mbappe, 118-pen. (3:3)

**Baş Hakim:** Şimon Marçinyak (Polşa)

**"Lusail" stadionu**

**Son 20 ildir davam edən böyük bir mübahisə yekunda başa çatdı. Artıq Lionel Messinin də dünya kuboku var. Məşhur 10 nömrənin bütün dövrlərin ən yaxşısı olmaq üçün dünya kubokuna ehtiyac olduğunu düşünənlər artıq rahatlıq taparlar.**

Qeyd edək ki, Fransa turnirin ilk matçından etibarən heyətlə bağlı zədələrə baxmayaraq, möhtəşəm futbol nümayiş etdirdi. "Xoruz"lar hər qarşılaşmada öz standartlarından yuxarı iş görən Rabio, eləcə də Mbappe, Qrizmann, Varan və Lloris kimi ulduz futbolçulara sahibdirlər. İngiltərə ilə yarımfinal qarşılaşmasından başqa demək olar ki, bütün oyunları rahat qalib başa vuraraq adlarını finala yazdırıblar. Mundialın qrup mərhələsində Səudiyyə Ərəbistanı məğlubiyyəti Argentina yığmasının növbəti qarşılaşmalara daha əlavə motivasiya ilə çıxmağına səbəb oldu. Argentina aqressiv müdafiə olunmaqla, formada olan Messiyə görə hücum planı tətbiq etdi. Xorvatiya matçına qədər Messi olmadan necə oynamaq olar sualını Alvarez və Fernandezin fərdi oyunçu keyfiyyətləri ilə cavabladılar.

Fransızlarla həlledici görüşdə Argentina millisi hücuma qoşularkən topun sol cinahda yer alan və sürətli keçidləri ilə ön planda olan Di Mariyaya ötürülməsini təmin etdi. Beləliklə, baş məşqçi Skaloni fransızların müdafiə xəttini sağ istiqamətə yönləndirməyi bacardı. Fransa millisinin hücum strategiyasında sol cinahın effektivliyi çox yüksək idi. Bu zonaya edilən təzyiq fonunda argentinalılar Ernandezlə Mbappe arasında hücum axarını pozmağı bacardılar.

Demək olar ki, Fransa oyunun ikinci hissəsinin sonlarına kimi meydançada yox idi. Lakin qarşılaşmanın 70-ci dəqiqəsindən sonrakı hissəsində əsl finala şahidlik etdik. Fransada baş məşqçi Didye Deşamın etdiyi dəyişikliklərlə yanaşı, argentinalıların da yorğunluğu, üstünlüyü Avropa təmsilçisinə verdi. Bu dəfə Mbappenin ifasında möhtəşəm qollar izlədik. Toplu və topsuz oyunda Argentinaya üstünlük quran Fransa seçməsi iki dəqiqə ərzində hesabda tarazlığı bərpa etdi. Hakimin əlavə etdiyi 30 dəqiqədə komandalar hərəyə bir dəfə də fərqlənməyi bacardılar. Bu dəfə də Messi-Mbappe duelinin şahidi olduq. Yekunda qalibi müəyyənləşdirmək üçün penalti zərbələrini daha dəqiq yerinə yetirən (4:2) Argentina 36 illik fasilədən sonra Dünya çempionu ünvanına sahib oldu.

Xatırladaq ki, Dünya çempionatları tarixində birinci dəfə 1930-cu ildə finala vəsiqə qazanan argentinalılar ilk sınaqlarından məğlub ayrılıb. Komanda Uruqvaya 2:4 hesabı ilə uduzub. "Tanqoçu"lar 1978-ci ildə Sesar Luis Menotti və 1986-cı ildə Karlos Bilardonun baş məşqçilik etdiyi mundialların "qızıl"ını qazanıb. 1986-cı ildə Qərbi Almaniya üzərində 3:2 hesablı qələbə qazanaraq, Dünya çempionu olduğu ildə Argentinaya əfsanəvi Dieqo Maradona kapitanlıq edirdi.

Argentina yığmasının heyətinin dəyəri 608 milyon avrodur. Komandanın ən bahalı futbolçusu Lautaro Martinesdir. "İnter"də çıxış edən hücumçunun qiyməti 75 milyon avrodur. Millinin kapitanı futbol tarixinin ən yaxşı oyunçularından hesab edilən Lionel Messidir. "Tanqoçu"ları Lionel Skaloni çalışdırır. 44 yaşlı mütəxəssis 2018-ci ilin avqustundan millinin sükanı arxasındadır.

### Messiyə hədiyyə edilən geyim

"DÇ-2022"-nin mükafatlandırma mərasimində Argentina millisinin kapitanı Lionel Messinin geyindiyi üst geyimi diqqət çəkib. Qətər əmiri Təmin bin Həməd əs-Saninin Messiyə hədiyyə etdiyi bu geyim "Bişt" adlanır. Qətər kişilərinin geyindiyi və ərəb mədəniyyətini simvolizə edən "Bişt" ən dəbdəbəli parçadan hazırlanır və yalnız mühüm bayramlarda nazirlər, eləcə də digər vəzifəli şəxslər tərəfindən geyinilir. Ərəb mədəniyyətinə görə, sözügedən libası geyinmək üçün bu şərəfə nail olmaq lazımdır.






*... Messi artıq uzun illərdir xəyalını qurduğu dünya kubokunu başı üzərinə qaldırdı. İllərdir, "görəsən, dünya futbolu məşhur argentinalıya kubok borcunu qaytaracaqmı" sualı da öz cavabını tapdı.*

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 20 dekabr.- S.11.